| | |
|---|---|
| **Fənnin adı, kodu və kreditlərin sayı** | **GEOG 389 Əhali coğrafiyası, AKTS-6** |
| **Departament** | Coğrafiya və Ətraf Mühit |
| **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| **Tədris semestri** | 2021/22-ci tədris ilinin yaz semestri |
| **Fənni tədris edən müəllim** | PhD Rövşən Kərimov |
| **E-mail:** | rovshan.kerimov@khazar.org |
| **Telefon:** | +994504886420 |
| **Mühazirə otağı/Cədvəl** | |
| **Konsultasiya vaxtı** | Həftənin 1-ci günü saat 14:00 |

| | |
|---|---|
| **Tədris dili** | Azərbaycan |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas:**<br>1. James M. Rubenstein. Contemporary Human Geography, 4th Edition. Pearson Education. 2019.<br>2. Goodfellow, T. & Fox S., 2016. Cities and Development (textbook). 2nd Edition, Routledge.<br>3. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006.<br>4. Müəllimin elektron mühazirələri.<br>**Əlavə:**<br>5. Danny Mackinnon, Andrew Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd edition. Pearson Education. 2011.<br>6. İsmayılov Ç.N. İqtisadi və sosial coğrafiyanın əsasları. Bakı. 2010. |
| **Kursun təsviri** | “Əhali coğrafiyası” kursu ərazi əhali qruplarını, məskunlaşmış yerlər sistemlərini və onların dinamikasını, tərkibini kompleks şəkildə öyrənir. Kursun vəzifəsi dünyada, onun regionlarında, o cümlədən Azərbaycanda və müxtəlif tipli ölkələrdə əhali inkişafının qanunauyğunluqlarını izah etmək, əhalinin, əmək ehtiyatlarının dinamikasının, strukturunun, yerləşməsinin, onlardan istifadənin iqtisadi-coğrafi xüsusiyyətləri barədə məlumat verməkdir. Əhalinin etnogenezi, məskunlaşması, təbii artımı, miqrasiyası, həyat səviyyəsi, məşğulluğu, dini və etnik tərkibi kimi müxtəlif məsələlər öyrənilir, əhalinin kəmiyyət və keyfiyyət göstəriciləri təhlil olunur. |
| **Kursun məqsədi** | Fənnin tədrisində məqsəd əhali coğrafiyasının elmi əsaslarının, demoqrafik proseslərin, irqlərin, etnik tərkibin, dinin, əmək ehtiyatlarının, əhali miqrasiyasının, urbanizasiyanın, kənd və şəhər məskunlaşmasının coğrafi öyrənilməsidir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Semestrin sonunda tələbələr aşağıdakılara nail olacaqlar:**<br>1. Dünya əhalisinin kəmiyyət və keyfiyyət göstəricilərinin formalaşmasında rolu olan coğrafi, sosial-iqtisadi və demoqrafik amillərin rolu barədə geniş nəzəri biliklər əldə etmək.<br>2. Dünyanın və onun müxtəlif regionlarının əhali artımını, məskunlaşmasını, demoqrafik inkişaf xüsusiyyətlərini təhlil etməyi bacarmaq.<br>3. Dünyanın, onun ayrı-ayrı regionlarının, böyük ölkələrinin əhalisinin, etnik, dini, cins, yaş tərkibini, əmək ehtiyatlarını müqayisəli şəkildə təhlil etməyi bacarmaq.<br>4. Regionların və ölkələrin nümunəsində əhalinin məskunlaşması, təbii artımı, təhsil səviyyəsi, miqrasiyası, həyat səviyyəsi, məşğulluğu və s. problemlərinə dair müqayisələr aparmaq və araşdırma etmək. |

| **Tədris metodları** | | |
|---|---|---|
| | **Mühazirə** | **X** |
| | **Slayd testləri ilə biliklərin yoxlanması** | **X** |
| | **Xəritə və sxem əsasında izah etmə** | **X** |
| | **Qrup müzakirəsi** | **X** |

| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix** | **Faiz** |
|---|---|---|---|
| | **Davamiyyət** | **Semestr müddətində** | **5** |
| | **Aktivlik** | **Semestr müddətində** | **5** |
| | **Kuiz** | **1. Mart. 2. May.** | **10** |
| | **Layihə işi** | **Öncədən təyin olunmuş vaxtda** | **10** |
| | **Aralıq imtahanı** | **Aprel** | **30** |

| | | | |
|---|---|---|---|
| | **Final imtahanı** | **İyun** | **40** |
| | **Yekun** | | **100** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Davamiyyət 5 balla qiymətləndirilir. Hər 3-cü qayıb tələbənin 1 balını silmiş olur.<br>“Fəallıq” balı tələbənin keçilən mövzuya dair aktivlik göstərməsinə, müzakirələrdə fəal iştirakına, sual-cavabda işitirakına və suallara doğru cavab verməsinə görə verilir. Müəllim tələbənin fəallığını nəzərə almaqla hər dərs qeydlər aparır. Keçmiş mövzunu oxumadan dərsə qoşulan tələbə dərsdə tələb olunan fəallığı göstərə bilmir və buna görə semestrin sonunda həmin meyara görə verilən ballardan məhrum olur.<br>Kuizlər üçün 10 bal ayrılıb. Belə ki, semestr ərzində ən azı 2 kuiz (hər biri 5 ballıq) keçirilir. Kuizlər açıq suallardan və ya test tapşırıqlarından, yaxud hər ikisindən (qarışıq) ibarət ola bilər. Tapşırıqlar müəllimin tələbələr üçün müəyyən etdiyi müddət ərzində yerinə yetirilə bilər. Kuizdə üzürsüz səbəbdən iştriak etməyən tələbəyə əlavə kuiz verilmir. Cavablarını gecikdirən tələbələrin işi qəbul olunmaya və ya ballarının bir hissəsi çıxıla bilər. Digər əlaqədar texniki məlumatlar tələbələrə müəllim tərəfindən semestr ərzində verilir.<br>Layihənin məzmunu minimum 8 A-4 formatlı səhifə həcmində olmalı, Times New Roman şrifti, 1,5 interval və 12 şriftlə maksimum 10-12 səhifə təşkil etməlidir. Layihə tapşırığının məzmunu mövzunun adına uyğun olmalıdır, belə olmazsa, iş müəllim tərəfindən qəbul olunmayacaq. Səliqəli yazmaq tələb olunur. Layihənin hazırlanmasında internet resursları, o cümlədən yerli və xarici ədəbiyyat, beynəlxalq hesabat və mətbuat materiallarından istifadə oluna bilər. İstifadə olunan ən son ədəbiyyat və ya ən son internet-məlumatlar son illəri əhatə etməlidir. Layihə işinin birbaşa internetdən endirilib kağıza çıxarılması yolverilməzdir. İşin sonuncu səhifəsində mütləq istifadə olunmuş istinad linklərin adları göstərilməlidir. Layihənin hazırlanmasında ən azı 5 mənbədən istifadə olunmalıdır, əks təqdirdə yazılmış iş qəbul olunmur.<br>Layihə işinin strukturu belə olmalıdır:<br>1. Tələbənin və mövzunun adı (titul vərəqində).<br>2. Tədqiqatın məqsədi.<br>3. Tədqiqatın məzmunu, təhlili, statistik analiz.<br>4. Nəticə (proqnoz).<br>Layihənin qiymətləndirilməsinin meyarları aşadğıdakı kimidir:<br>1. Fikirlərin ardıcıllığı, daha müasir ədəbiyyatdan istifadə – 3 bal.<br>2. Alınan nəticələrin spesifik və konkret olması, illər və ya dövrlər üzrə məntiqi təhlil, səbəb və nəticələrin, təsir edən amillərin və s. elmi cəhətdən düzgün göstərilməsi, doğru nəticə – 4 bal.<br>3. Təqdimat zamanı qazanılmış biliklərin yaxşı nümayiş etdirtilməsi – 3 bal.<br>Layihə işini təhvil tarixindən gec təqdim etmiş tələbə ən az 1-2 bal itirmiş olur.<br>Final və Aralıq imtahanları müəllim tərəfindən ya test, ya açıq sual, yaxud da hər ikisindən istifadə olunmaqla hazırlana bilər. Bununla bağlı daha ətraflı məlumat müəllim tərəfindən imtahan öncəsi verilir. | | |

**Cədvəl**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik / Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | | Əhali coğrafiyası elmlər sistemində. Dünya əhalisi. | 1. James M. Rubenstein. Contemporary Human Geography. 2019. Chapter 1.<br>2. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. Səh.7-17.<br>2. Müəllimin mühazirəsi. |
| 2. | | Əhalinin sayı və artımı | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006. səh.20-41.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 2019. Chapter 1.<br>3. Müəllimin mühazirəsi. |
| 3. | | Əhalinin cins, yaş strukturu və ailə tərkibi. | 1.Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006. səh. 42-49. |

| | | | |
|---|---|---|---|
| | | | 2. Müəllimin mühazirəsi. |
| 4. | | Əhali qanunları. Demoqrafik siyasət | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006. səh. 50-99.<br>2. Müəllimin mühazirəsi. |
| 5. | | İrqlərin coğrafiyası | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. Səh. 101-121.<br>2. Müəllimin mühazirəsi. |
| 6. | | Əhalinin etnik tərkibi | 1. James M. Rubenstein. Contemporary Human Geography. 2019. Chapter 7.<br>2. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006. s.122-159.<br>3. Müəllimin mühazirəsi. |
| 7. | | Dinlərin coğrafiyası | 1. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 6.<br>2. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006. s.122-159. |
| **Aralıq imtahanı** | | | |
| 8. | | Əmək ehtiyatları | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. S.182-193.<br>2. D.Mackinnon, A.Cumbers. Introduction to Economic Geography: globalization, uneven development and place. 2nd edition. 2011.pp.147-173.<br>3. Müəllimin mühazirəsi. |
| 9. | | Əhalinin məşğulluğu. İşsizlik | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. s.185-193.<br>2. D.Mackinnon, A.Cumbers. Introduction to economic geography: globalization, uneven development and place. 2nd edition. 2011, pp. 147-173.<br>3. Müəllimin mühazirəsi. |
| 10. | | Əhalinin miqrasiyası, növləri və səbəbləri | 1. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası. Dərslik. Bakı. 2006.<br>2. James M. Rubenstein. Contemporary Human geography. 1st Edition. 2019. Chapter 3.<br>3. Müəllimin mühazirəsi. |
| 11. | | Əhalinin sıxlığı və ona təsir göstərən amillər | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 2.<br>3. Müəllimin mühazirəsi. |
| 12. | | Məskunlaşmanın tipləri. Şəhərlərin coğrafiyası | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. S.248-262.<br>2. James M. Rubenstein. Contemporary Human Geography. 1st Edition. 2019. Chapter 11. |
| 13. | | Suburbanizasiya və centrfikiasiya | 1. Əfəndiyev V.Ə, Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006. S.271-289.<br>2. Goodfellow T. & Fox S. 2016. Cities and Development (2nd Edition), pp. S.132-170. |
| 14. | | Şəhərlərin sosial əraziləri | 1. Goodfellow, T & S. Fox, 2016. Cities and Development (2nd Edition), (textbook), pp.205-237.<br>2. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası . Dərslik. Bakı. 2006, S. 315-332. |
| 15. | | Ümumiləşdirici dərs. Təqdimatlar. | |